# TARİXDƏN ÜZÜ BƏRİ

*"Türk, Oğuz bəyləri, xalqı! Eşidin: Yuxarıda Tanrı basmasa, aşağıda Yer dəlinməsə, türk xalqını, dövlətini, millətini, nizamını-qanunu kim pozar?"*

**"Kül Tiqin" abidəsindən**

Tale payına düşmüş coğrafi göstəriciləri, təbii resursları Azərbaycanın geosiyasi mövqeyinə tarix boyu ciddi təsir göstərmiş, onu qanlı-qadalı hərb savaşları ilə üzləşdirmişdir. Azərbaycan bu gün də həmişə olduğu kimi qlobal maraqların və ziddiyyətlərin toqquşduğu bir məkan olaraq qalmaqdadır. Ermənistan adlı saxta bir dövlətin torpaq iddiası, yalançı "genosid" düşüncəsi yenə də müharibə cinayətləri törətməkdədir. Halbuki araşdırmalar "Böyük Ərməniyyə" ideyasının Movses Xorenasi, Favtos Buzandın və başqa erməni tarixçilərinin təxəyyülünün məhsulu olduğunu çoxdan sübut etmişlər. ABŞ-ın Koliforniya Universitetinin professoru, əslən Tbilisi ermənisi olan Nina Qarsoyan ciddi mənbələr əsasında iş aparmış, 1971-ci ildə Ermənistan Elmlər Akademiyasının "Xəbərləri"nin 2-ci sayında dərc etdirdiyi "Ərməniyyə IV əsrdə" məqaləsində bildirmişdir ki, "Ərməniyyələr" mərkəzləşmiş bir qurum şəklində heç zaman mövcud olmamışlar. Lakin dərc olunan günün səhərisi bu məqalənin olduğu jurnalın bütün nüsxələri yandırılmışdır. Həmin jurnalın nüsxələri Azərbaycanda və Rusiyada saxlanılır. Hətta Nin Qarsoyan belə bir fikir söyləmişdir ki, özünə hörmət edən heç bir tarixçi "Vahid Ərməniyyə" olduğunu iddia edə bilməz.

Tarixi mənbələr göstərir ki, min illər boyu ermənilərə xas olan dövlətçilik və müstəqil idarəçilik mövcud olmamışdır. Xristianlaşdırma tarixi ilə bərabər bütün qədim erməni salnamələrinin və sonrakı xronikaların saxta olduğu alimlər tərəfindən dəfələrlə sübuta yetirilmişdir. Erməni lobbisinin təhdidlərinə baxmayaraq bu məsələ ətrafında ciddi tədqiqatlar apararaq beş cildlik kitab çap etməyi nəzərdə tutmuş, lakin birinci kitabın nəşrindən sonra müəmmalı şəkildə həyatını itirmiş şotland əsilli amerikalı yazıçı, tarixçi Samuel Uimizin "Ermənistan: terrorçu "xristian" ölkənin gizlinləri" əsəri bu baxımdan çox əhəmiyyətli araşdırma hesab oluna bilər.

Azərbaycanda böyük alimlər ordusu indi də bu sahədə xeyli iş görməkdədirlər. Onların xidmətləri sayəsində hətta xeyli sayda xəritələrin surətləri Azərbaycana gətirilmişdir. Qədim Şərq alim, tarixçi və səyyahlarının, xüsusən də Bəlxinin, İstaxrinin, Müqəddəsinin, Əhməd əl-Tusun, İbn Səidin, Nəsirəddin Tusinin, Avropa səyyah və xəritəşünaslarından XV-XVII əsrlərdə yaşamış Abraham Orteliusun, Georq Sansonun, Guiljelmo Blacuvun, eləcə də XVIII-XIX əsrlərdə tərtib olunmuş bir çox xəritələr Azərbaycan həqiqətlərini təsdiqləyən tarixi sənədlərdir.

Azərbaycana erməni köçü barədə arxiv materialları həqiqəti bütün çılpaqlığı ilə ortaya qoymaqdadır. XIX əsrin əvvəllərində çar Rusiyasının Qafqazı işğal etməsi barədə çar məmuru N.Şavrov belə yazır: "Biz müstəmləkəçilik fəaliyyətimizə Qafqaza rus əhalisinin deyil, xaricilərin köçürülməsindən başladıq. Vətəndə arzuedilməz ünsürlər sayılan bu kolonistlərdən Tiflis və Yelizavetpol (Gəncə) quberniyalarında koloniyalar yaratdıq. Onlara ən yaxşı torpaqlar ayrıldı və müxtəlif imtiyazlar verildi... demək olar ki, ermənilər yaşamayan Yelizavetpol və İrəvan quberniyalarında, Tiflis, Borçalı, Axalsıx, Axalkələk qəzalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirdik. Həmin ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi nəzərdə tutulur - müəllif) və Göyçə gölünün sahillərində məskunlaşdırıldılar. Bunu da nəzərə almaq lazımdır ki, rəsmi olaraq köçürülən 124 min ermənidən başqa buraya qeyri-rəsmi köçənlərlə birlikdə onların sayı 200 min nəfərdən çoxdur".

Çoxsaylı dünya və Azərbaycan alimlərinin, siyasətçilərinin cavablarına baxmayaraq ermənilər öz uydurmalarına nəinki inanırlar, hətta qan tökməkdən yorulmurlar. Reallıq isə budur ki, bu günün savaşı digərlərinə bənzəmir, düşmənin yalanı və həyasız ittihamları dövlətimizin otuz illik maddi-texniki və sosial-mənəvi hazırlığının qarşısında aciz qalmışdır. Saxta dövlət, qondarma respublika və onların havadarları artıq Azərbaycan reallığında XXI əsrin texnologiyası ilə qarşı-qarşıya qalmışlar. Minlərlə şəhidlərin, qaçqın və köçkünlərin haqqı bu gün güclü Azərbaycan Ordusunun, qeyrətli, şir ürəkli igidlərin, onları böyüdüb boya-başa çatdırmış mərd insanların əzmi ilə geri qaytarılır. Bu gün Azərbaycan dünya hərb tarixinə yeni səhifələr yazmaqdadır. Yeni dövrün böyük dövlət xadimi olan Prezident İlham Əliyevin müdrik, qətiyyətli və cəsarətli siyasəti ölkə başçısı ilə xalq arasında yaranmış birliyi daha da sarsılmaz edir. Azərbaycan prezidenti bu gün dünyanın yüksək maddi-texnoloji nailiyyətlərindən Vətəninin və xalqının xeyrinə məharətlə istifadə edir, yurdumuzu gözlənilən risklərdən uğurla qoruyur, tarixi ərazi bütövlüyümüzü bərpa etmək uğrunda bütün hərbi-diplomatik imkanlardan istifadə edir. Bu il sentyabrın 14-də Azərbaycan Respublikasının işğal altında qalan 20 faizlik ərazisində yaradılmış separatçı-terrorçu xunta rejiminin rəhbəri sayılan Araik Arutyunyan "Facebook" səhifəsində torpaqlarımızdan video paylaşaraq belə bir bəyanatla çıxış etmişdi: "Bəli, Akna (Ağdam) da Stepanakert (Xankəndi), Şuşi (Şuşa), Berdzor (Laçın), Tiqranakert (Şahbulaq-Pənahabad) və ya Kalvaçar (Kəlbəcər) kimi bizim vətənimizdir... Mən bu bəyanatı Ağdamdakı bağımdan bütün ermənilər adından verirəm... Bundan sonra sözü regionun ən güclüsü sayılan Azərbaycan Milli (?) Ordusuna veririk..." Bu ironiya dolu bəyanatdan düz 15 gün sonra, sentyabr ayının 27-də müzəffər Azərbaycan Əsgəri Ermənistanın təxribatına əks-hücumla cavab verərək ən güclü olduğunu Paşinyanlara, Arutyunyanlara sübut etmişdir. Müzəffər Ordumuz bu gün də yüksək döyüş əzmi ilə düşmənin ağır hücumlarını dəf edərək xalqın tarixindən, taleyindən "məğlubiyyət" ifadəsini silməkdədir. Qədim türklərin geniş coğrafi təfəkkürü, irimiqyaslı siyasi-hərbi hadisələrə nəzarət etmək bacarığı, hərb meydanında müxtəlif taktiki manevrlərlə iştirak etmə qabiliyyəti bu gün Azərbaycan əsgərinin şəxsində dünyanı heyran qoymaqdadır. Bu gün dünyanın dönüşü Azərbaycandan başlayır.

Vətən oğlu Azərbaycanın dilbər guşələri olan Qarabağ, Kəlbəcər, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı, Tərtər və bir çox əraziləri düşmən tapdağından qurtarmaqla öz əmanətini qoruyur, namusundan ləkəni qanla silir. Bu həm də düşüncələrdə, araşdırmalarda, mövzularda bir dönüşdür. Bu qələbə sevinci həyatımızın hər sahəsində bir yenilənmə ruhu yaşatmaqdadır. Çünki zəfər hissi, qalibiyyət əzmi cəmiyyət üçün həm də misilsiz mənəviyyat qaynağıdır. Zaman gələcək, xalqımızın Vətən müharibəsində göstərdiyi rəşadət tarixi salnamələrə həkk olunacaq. Bilgə xaqandan, Kül Tiqindən, Alp ər Tonqadan, Atilladan, Xətayidən, Məmmədəmin Rəsulzadədən və nəhayət, XX əsr fenomeni olan Heydər Əliyevdən miras olaraq ötürülmüş dövlətçilik tariximizə Ali Baş Komandan, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin adı qızıl hərflərlə yazılacaq. Zaman gələcək Azərbaycan xalqının sinəsindən yeni qəhrəmanlıq dastanları, yeni rəvayətlər, nağıllar qopacaq, el ədəbiyyatında yeni cəngavər, yeni xaqan obrazları yaranacaq.

Azərbaycan xalqının mentaliteti türkçülük və islamçılığın üzvi vəhdəti, sintezi şəraitində formalaşmışdır. Böyük türk oğlu Bilgə xaqanın Göy Türkə yeni həyat bəxş edildiyindən bəhs etdiyi zaman qətiyyətlə işlətdiyi ifadələr bu gün yenidən bir şüara çevrilmiş, beyinləri silkələmişdir: "Türk yaşayacaq!" Bu ellərdə insanlığın ali missiyası Vətən, millət yolunda "qan tökmək, acı doyuzdurmaq, yalıncığı donatmaq" olmuşdur. Arzumuz isə beynəlxalq münasibətlərin reallığında xalqımızın yanında Türkiyə, Pakistan kimi qədirbilən dövlətlərin sayının çox olmasıdır.

***Aytac ZEYNALOVA,***
***Azərbaycan Dillər Universitetinin Azərbaycan Ədəbiyyatı Kafedrasının filologiya üzrə fəlsəfə doktoru, dosent***